

Vaqif ƏLİYEV

## DOĞMALIQDA BİRİNCİ

*Dağ yəhudilərin dini icmasının rəhbəri Milıx Yevdayevə*

Qeyrətli, mərd oğula
Vətən anatək əziz.
Məhəbbəti ürəyə
sığışmayan bir dəniz.
Bu bir coşqun ümmandır
ülvi hisslərlə dolu.
Bu hisslərlə yaşayan
seçər doğru, düz yolu.

Əməlinə, ay qardaş,
mən vurğunam, heyranam.
Başı çox uca edər
düz əqidə, düz inam.
Azərbaycana sevgin
tükənməzdir, tükənməz.
Sinəndəki məhəbbət
bir məşəldir
- o sönməz!

Alqış edirəm, alqış,
bəslədiyin sevgiyə.
Sənin böyük istəyin
heç gələrmi ölçüyə.
Əzizləyək daima,
bu yurdu, bu torpağı.
Qoy göylərə ucalsın
Azərbaycan bayrağı.

Vətəndə övladıq biz
o isə bizə ana.
Qoymayaq nankor qonşu
ləkə gətirsin ona.
Həqiqət carçısısan
daim var olsun bu səs.
Məqsədin aydın, təmiz
getdiyin yol müqəddəs.
Bu vətən bizim üçün
doğmalıqda birinci.
Gözümüzdə həmişə
çox qiymətli bir inci.

## BÖHTAN OLSA

Dil şirinsə kövhəri var,
Acıdırsa zəhəri var.
Söz deməyin təhəri var
Qanan olsa...

Dil də deyər hər gün çox söz,
Dəyər varsa:
Əhsən! - yox söz.
Bir kəlməsi qızardar üz
Yalan olsa...

Yar süzdürər gözün nazla,
İl sevdirər özün yazsa,
Aşıq deyər sözün sazla,
Meydan olsa...

Söz var desən təsəllidi,
Müşkül işin o həllidi,
Deyəcəyi söz bəllidi
Nadan olsa...

Hər əzaba döz, gər sinə,
Yazma sözü sən tərsinə.
Olar sözlə bol zər sinə
Ozan olsa...

Kişi deyər sözün düzün,
Öz halına ağla özün.
Mənası çox "türkün sözü"n
Yozan olsa...

Hey səsləyir məni bu səs
Car çəkməyə tez ol, tələs!
Ermənidir: söz deyən kəs,
Böhtan olsa...

## QORUMASAQ BİZ ƏGƏR

Qismət olmur şərəflə
Yaşamaq hər bir kəsə.
Dağı dağ üstə qoyar
İnsan əgər istəsə!

Hamımıza bu dünya
Mübarizə meydanı.
Qoymayaq girə qəlbə
Biz iblisi, şeytanı.

Layiqli övlad olaq,
Gəlin doğma Vətənə,
"Oğul!" deyib o açsın,
Qolunu hər yetənə.

Vətən öz övladını
Dar günündə sınayar.
Vəfasız olanları
Töhmətləyər qınayar.
Oğul öz torpağını,
Laləzara döndərər.
Düşmənini məhv edib
Cəhənnəmə göndərər.

Vətəndən Vətən olmaz
Qorumasaq biz əgər.
Keşiyində can qoyub
Olmasaq ona əsgər!

## GƏNCLİK HƏVƏSİYLƏ

*Tələbə yoldaşım, əziz dostum, iqtisad elmləri doktoru, professor Raqib Quliyevə*

Elmdə uca zirvə
hər kəs qət edə bilməz.
Bu arzuya, istəyə
acizlər yetə bilməz.
Qulaq asan azalıb
vicdanının səsinə.
Vətən nə desin, ay dost,
övladın beləsinə.
Onlarda buz bağlayıb
açılmır hissin donu.
Vətəninə, xalqına
unudubdu borcunu.
Naqisləri görmədim
bu həyatda gözü tox.
Xeyirsiz insanların
Vətəndən istəyi çox.

İnsana ucalıqda
vallah durmaq şərəfdir.
Həyatda seçdiyin yol
həmişə düz tərəfdir.
Bu şana, bu şöhrətə
ucalmaq olmur asan.
Öz ayağıyla gəlmir
heç vaxt insana ad-san.
Susub durmaq çətindi,
doğrunu deməyəsən.
Görmədim bircə dəfə
işinlə öyünəsən.
Etdiyin xidmətləri
gətirmədin dilinə.
Sən oldun əsil övlad
Vətəninə elinə.
Görürəm bu sinəndə
yenə min arzu doğur.
Arzular gerçəkləşib
sənə gətirir uğur.
Arzuların hər biri
həyatda açıb çiçək.

Hamıda yaratmısan
özünə böyük istək.
Gənclik həvəsi ilə
ürəyin yenə vurur.
Görəcəyin çox işlər
hələ qarşıda durur.
Heyranam dostluğuna,
qoy deyim bunu sən bil.
Xeyirxah insanları
Vaqif unudan deyil.

## QƏHRƏMAN OĞLUDUR ONLAR MİLLƏTİN

*2-5 aprel 2016-cı il tarixində Qarabağ döyüşlərində mərdliklə vuruşub qəhrəmanlıq göstərən şəhid əsgərlərə*

Ay şəhid anası, qəhrəman qadın,
Ən uca zirvəyə çatıb övladın.
Şəhidlik zirvədir - Allaha yaxın,
Tutacaq düşməni qarğışın, ahın.

Şəhidlər ölməzdir - əbədi yaşar,
Vətənin üstündə ruhu dolaşar...
Hər biri döyüşkən olmuşdur əsgər,
Düşmənə dağ çəkib göstərmiş hünər.

Yazdılar qanıyla zəfər nəğməsin,
Hər gün eşidirik göylərdə səsin.
Səsləyir bu səslər bizi yürüşə,
-Qələbə ruhuyla girin döyüşə!

Vuruşda düşmənə rəhm etmək olmaz,
Bu hisslə məqsədə heç yetmək olmaz.
Yağı ayağını kəsək bu yerdən,
Üstünə tufantək əsək bu yerdən.

Düşmən məkrlidi, şeytandı, şeytan,
Dilindən əskilmir nə şər, nə böhtan.
Yoxdur zərrə qədər abır-həyası,
Çaqqaldan, qurddandır çünki mayası.

Boynunun dərisi gör neçə qatdır,
İnsanlıq xisləti onlara yaddır.
Topası vəhşi bir heyvan sürüsü,
Sağından yaxşıdır vallah ölüsü.

Düşüblər təşvişə, gəliblər lərzə,
Yekəbaş başçısı danışır hərzə.
Onun iç üzünü çatdıraq ərzə,
Dünya da onların bilsin zatını.

Ay şəhid anası, şəhid atası,
Hər kəs bu zirvəyə olmur çatası,
Qəhrəman olmayır belə hər oğul,
Nər oğul lazımdır elə nər oğul.

Döyüşə atılsın canından keçib
Özünə şərəfli bu yolu seçib.
Xalqında övladdır
- O ər, o əsgər
Vətənə borcunu verdisə əsgər.

İgidlik göstərmək heç asan deyil,
Vətəni sevməyən heç insan deyil.
Şəhidlik zirvədir - qalxmaq çox çətin,
Qəhrəman oğludur onlar millətin!

Ədalət.-2017.-31 may.-S.4.